**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 18 aprel (Cümə günü) tarixli 160-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Cümə, 17 rəcəbül-mürəccəb sənə 1337.
18 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## DAĞISTAN İMDADINA!

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Mərkəzi Komitəsi tərəfindən intixab olunmuş [seçilmiş] xüsusi bir komisyon tərəfindən dağıstanlı qardaşlarımız üstünə hücumavər olan [hücum edən] hürriyyət və istiqlal düşməni Denikinin qara qüvvəsi ilə hərb etmək üçün Azərbaycan könüllü dəstəsi təşkil olunur. Yazılmaq istəyənlər hər gün Məclisi-Məbusan binasında, "Müsavat" fraksiyonu mənzilində gündüz saat 8-dən 2-yə və axşam saat 5-dən 7-yə qədər yazıla bilərlər.

"Cəmiyyəti-Maarifi-İraniyan"a üzv olmaq və müavinət [köməklik] etmək arzusunda bulunan arxadaşlar hər gün "İttihad" məktəbində (Qubernski, nömrə 37) saat 9-dan 2-yədək Hacı müəllim cənablarına müraciət edə bilərlər.

*Müvəqqəti İdarə Heyəti*

## İXTAR [XƏBƏRDARLIQ]

Elektrik işığı olmadığından, bu gün qəzetəmiz kiçik qitədə [ölçüdə] çıxır.

## OPERETTA VƏ "AZƏRBAYCAN"

**Hökumət Teatrosunda**
**axşam tamaşası**
Zülfüqar bəy və Üzeyir bəy
Hacıbəyli Qardaşları Müdiriyyəti
cümə günü
rəcəbülmürəccəb ayının 17-sində (aprelin 18-ində
1919[-cu] ildə)
şükuhlu [təmtəraqlı]
bir mənzərədə
mövqeyi-tamaşaya qoyulacaqdır
Zülfüqar bəy Hacıbəylinin
**"Əlli yaşında cavan"**
nam [adlı] operettası.
2-nci pərdədə
Orduxan bəyin qonaqlığında
İsa bəy Aşurbəylinin
təzə yazmış olduğu
**"Azərbaycan" faciəsi** göstəriləcəkdir.
Tamaşa başlanacaq axşam saat 8-in yarısında.
Biletlər teatrın kassasında satılmaqdadır.

*T-107*

## ELAN

Bu cümə günü saat 12 tamamda aprel ayının 18-də Parlaman binasında "Müsavat" firqəsi idarəsində hamballar iclası olmağa görə bütün tamadalar, podratçı, işçi, işsiz hambalların dəvətnamə almayan ağsaqqallarından iclasda hazır olmaları rica olunur.

*"Müsavat"ın*
*Təbliğat-Təşkilat şöbəsindən*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**14 aprel axşam iclası**

*(tənəffüsdən sonra)*

**Sədr** - İclas davam edir. Söz verilir Parlaman üzvü doktor Quxmana.

**Quxman** – Hökumət bəyannaməsi rusca tərcümə edilmədiyindən və biz onun məzmununu bilmədiyimizdən, formulaya səs verə bilməyəcəyimizi xəbər vermişdik. Şimdi məzmununa aşina olduq. Ona görə də lehinə səs verəcəyiz.

**Sədr** – "İttihad" firqəsi ilə bitərəflər tərəfindən böylə bir təklif var. *(Katibə)* Oxuyun!

**Katib** *(oxuyur)* – Hökumətin bəyannaməsini dinləyərək "İttihad" fraksiyası və bitərəflər elan edirlər ki:

1 – Çünki Azərbaycan istiqlalını müdafiə edən firqələr arasında koalisiyon üsulu bu hökumətin təşkilində nəzərə alınmamışdır;

2 – Çünki "İttihad" fraksiyası hökumətin təşkilində iştirak etməmişdir;

3 – Çünki bu hökumətin gələcəkdə fəaliyyəti xüsusunda heç bir zəmanət yoxdur:

Firqələr bu hökumət haqqında öz nöqteyi-nəzərlərini təyin etməyir və məsuliyyəti də üzlərinə almayırlar.

**Sədr** – Cəlil bəy, siz danışmaq istəyirdiniz, buyurunuz.

**Cəlil bəy Sultanov** (bitərəf) - Rəisi-vükəlanın [Baş nazirin] bəyannaməsində Qarabağ məsələsi üstüörtülü keçdiyindən bizim fraksiyamız səs verməkdən imtina edir.

**Sədr** – Mən başa düşmürəm, burada bitərəflər ismindən rəsmən təklif olunur, siz isə başqa söz deyirsiniz.

**Qara bəy [Qarabəyli]** *(yerindən)* – Bu başqa motivdir.

**Sədr** – Belə olan surətdə etilafa [razılığa] gəlin.

**[Behbud xan] Cavanşir** (bitərəf) *(yerindən)* – İcazə veriniz.

**Sədr** – Buyurunuz.

**Cavanşir** – Hökumət rəisi bu gün öz bəyannaməsində Azərbaycanın hər yerini adbaad çəkdi. Nə fikri olduğunu söylədi. Hətta Lənkəran, İrəvan və Naxçıvan uyezdləri adını da çəkdi. Amma ən mühüm Qarabağın adı çəkilmədi. Məlumatımıza görə, Qarabağ məsələsi bəyannamədə var idi. Fəqət bilmirəm kimin xatirəsi üçün bu gün bəyannamədən götürülmüşdür. Məlumdur ki, Qarabağ həlakətdə [həlak olmaqda] idi. İndiyədək orada müsəlmanlar Andranikin əlindən çox böyük cəfalar çəkirlər, çox qurbanlar vermişlər. Hətta yüzə qədər kənd xarabaya dönmüşdür. Onlar gözləyirdilər ki, hökumət bəyannaməsində Qarabağ məsələsi zikr ediləcəkdir. Hökumət, özünüz bilirsiniz ki, oraya general-qubernator göndərib və ona böyük ixtiyarlar vermişdir. Bizim arxamızda duran üçüncü böyük hökumət də ona geniş vəkalət veribdir ki, Qarabağ müsəlmanlarını düşmənlər əlindən xilas etsin. Bu gün isə hökumət rəisi bu barədə bir söz danışmadı. Öylə nəzərə gəlir ki, guya Qarabağ məsələsi qurtarıb...

**Səslər** – Qurtarıbdır.

**Cavanşir** *(davam edir)* – Sizdən ötrü ola bilər ki, qurtarıb, amma bizdən ötrü hələ qurtarmayıbdır. Qarabağ əhlindən bir nəfər Şuşadan o yana adlaya bilmir. Hər kəs getsə, ölümdən savayı bir şey görməz. Necə ki, bu gün Lənkərana gedib-gəlmək mümkün deyildir, öylədə də Qarabağın dağlarına keçmək mümkün deyil. Biz ümid edirdik ki, hökumət bu gün Qarabağ məsələsi haqqında nə tədbirlər görəcəyini söylər. Amma bu məsələ barəsində heç bir şey eşitmədik. Bilmirəm hökumətin bu barədə nəzəri nədir. Qarabağ məsələsinə münasibətimiz böylə ikən, bəyannamənin qalan hissələri haqqında "İttihad" fraksiyasının formulasına iştirak edirik. Hökumətə olan münasibətimiz isə hökumətin gələcək fəaliyyəti ilə məlum olacaqdır.

**Sədr** – Söz hökumət rəisi Nəsib bəy Yusifbəylinindir.

**Nəsib bəy** – Möhtərəm məbuslar! Mənim bəyannaməmdə nə qədər mübahisəli yerlər və məsələlər varsa, o xüsusda sözümü dedim. Çox mübahisəsiz məsələlər vardır ki, hökumət o xüsusda söz söyləməyi artıq bilir. İrəvan, Lənkəran, Tiflis sözü oldusa, o da ondan ötrüdür ki, onlar mübahisəlidir. Qarabağ xüsusunda mübahisə yoxdur. Onun üçün də mən mübahisəli olmayan məsələ haqqında bir söz belə söyləməyi artıq bildim.

**Sədr** – Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin** – Biz bu təklifin əleyhindəyiz. Nə üçün əleyhində olduğumuzun dəlilini söyləmək istərəm. Bəyannamədə Qarabağ fəqərəsi [məsələsi] yoxdur. Bu xüsusda hökumət rəisi dəxi nə mülahizə ilə məzkur fəqərəyə [deyilən məsələyə] lüzum olmadığını söylədi. Həqiqətən öylədir. Meydanda Lənkəran məsələsi var. Çünki Lənkəran daha əlimizdə deyil, çünki oraya hələ Azərbaycan məmurini [məmurları] təyin edilməmiş. Tiflis quberniyasından Borçalı məsələsi var. Çünki orası da bizim hökumət və qüvvətimizin xaricindədir. İrəvan quberniyasının bəzi yerlərinə aid məsələ var. Çünki kəza [həmçinin] hökumət oralara hələ nüfuz edəmməyib, torpaqlarımız başqa əllərdədir. Halbuki, Qarabağ məsələsi böylə layənhəll [həll edilməmiş] bir halda deyildir. Oraya general-qubernator təyin olunmuş, oradakı hüquqi-mülkiyyəmiz hətta bir dərəcəyə qədər beynəlmiləl bir halı belə iktisab eyləmişdir [əldə etmişdir]. Bir də İrəvan quberniyasının davasını edən hökumətdən qalxıb da Qarabağ məsələsini istizah etmək [soruşmaq] yersizdir. Çünki İrəvana gedən hökumət təbiidir ki, Qarabağ dağlarını aşıb keçmədən gedəmməzdi.

Bizcə və hökumətcə Qarabağ məsələsi yoxdur. Nasıl ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarabağ ünvanı ilə vaqe olan hər növ təklifi rədd ediriz.

**Sədr** – Söz Parlaman üzvü [Arşak] Malxazyanındır.

**Sədr** – Parlaman üzvü Malxazovun etirazı əsassızdır. Mən söz verdim, bəyannamə münasibəti ilə iki fraksiya öz rəyini dedi də. Məsələnin əsası üzərində danışan olmadı. Müştərəkən verilən təklifdən başqa, başqa təklif yoxdur. Bu təklifi səsə qoyuram.

**Sağdan** – Biz də təklif verdik.

**Sədr** – Sizin verdiyiniz təklif deyil. Siz ancaq nə üçün səs verməyəcəyinizin səbəbini göstərirsiniz. Mən bunu səsə qoya bilmərəm. *(Katibə)* Müştərəkən verilən təklifi oxuyun.

**Katib** *(oxuyur)* – "Hökumətin bəyannaməsini eşidərək Məclisi-Məbusan bəyani-etimadla [etimad göstərməklə], bəyannamədəki əsasların fikirdən işə keçirilməsində hökumətə hər növ ilə müavinət edəcəyini bildirərək, növbədəki məsələlərin müzakirəsinə keçir." *(Rusca tərcüməsini oxuyur.)*

**Sədr** – Qoyuram səsə. Hər kəs bu təklifi qəbul edirsə, əlini qaldırsın. *(Əllər qalxır)* Sayın. Lehinə - 43. Kim əleyhinədir? Əleyhinə yox. Kim səs vermir? 21 nəfər. Lehinə - 43, əleyhinə yox, səs verməyən - 21. Beləliklə, formul əksəriyyətlə qəbul olunur. *(Sürəkli alqış)*

Vaxt təng [dar, az] olduğuna görə başqa məsələlər müzakirəyə qoyulmayacaqdır. Məclisi qapamadan əvvəl gələn iclasın yövmiyyeyi-müzakiratını [müzakirə gündəliyini] elan edirəm. Gələn iclasın yövmiyyeyi-müzakiratı böylə olur: Mükələfiyyəti-əsgəriyyədən [hərbi mükəlləfiyyətdən] maarif yaxud sənət cəhətilə azad olunması haqqındakı imtiyazat qanununun tövsisi [genişləndirilməsi]. Cibaliyyun [Dağlılar] hökumətinə 30 milyon qərz [borc] xüsusunda layiheyi-qanuniyyə. Kür nəhri sahillərində sədlər inşası üçün müəyyən məbləğ buraxılması haqqında layiheyi-qanuniyyə. Bu cür yövmiyyeyi-müzakiratı təsdiq ediniz. Etiraz yoxsa, qəbul olunur. Məsələ bitdiyindən iclas qapanır.

*(İclas saat 8.50 dəqiqədə qapanır)*

## TELEQRAF XƏBƏRLƏRİ

**Müsəlmanların gələcək üsuli-idarəsi haqqında**

London – Balfura yazılmış və "Müsəlman" imzası ilə imzalanmış olan bir məktubda Balfura yenidən deyirlər ki, Türkiyənin və Ermənistanın istila edilmiş yerində muxtariyyət üsuli-idarəsi təklifini təbrik edirlər. Bu üsuli-idarə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] tərəfindən təmin ediləcəkdir. Fəqət məktubu yazanlar bu yerlərin Türkiyədən ayrılması təklifinə mənfi nəzərlə baxırlar. Məktubu imza edənlər təklif edirlər ki, İngiltərə Hökuməti müharibədən əvvəl, Türkiyə Hökumətinin etmiş olduğu təklifini qəbul eyləsin. O təklif də bu idi ki, Asiyayi-suğranı [Küçük Asiyanı, Anadolunu] idarə etmək üçün İngiltərə ingilis-hind administratoru təyin eyləsin və bunlar Asiyayi-suğranın mülki və mali [maliyyə] işlərini idarə etsinlər. Bunlar ciddiyyən təklif edirlər ki, hər bir halda yeni muxtariyyətli dövlətlər Osmanlı xəlifəsinin ruhani nüfuzu altında olsunlar. O ki, qaldı Fələstində yəhudi [dövləti] təşkili məsələsinə, məktubu imza edənlər deyirlər ki, hərgah, Sülh Konfransı Fələstinin müstəqil bir dövlət olmasını qət edərsə, hərgah, o dövlətin başında müsəlman olmasa, bütün aləmi-islam bu qətnamədən dilgir [narazı; dilxor] olacaqdırlar.

* * *

Helsinqfors [Helsinki] – Verilən xəbərlərə nəzərən, bolşeviklər Narva cəbhəsinə külli qoşun və ağır toplar yeridirlər. Litvadan xəbər verirlər ki, Litva-Kurlanda [Latviya] cəbhəsində bolşeviklər ümumi yürüşə keçmişlərdir. Şimali Litvada bolşeviklər qəti surətdə məğlub olmuşlardır. Mitava xətrə [təhlükə] altındadır.

Kopenhaq – Berlindən xəbər verilir ki, almanlar Müttəfiqlərin komissarlarına xəbər vermişlər ki, Almaniya Hökuməti heç bir halda polyakların Dansiqə girmələrinə müsaidə verməyəcəkdirlər. Eyni zamanda Müttəfiqlərin və polyak ofiserlərinin Vistuldan [Visla çayından] şərq tərəfinə keçmələrinə razı deyildirlər. Müttəfiqlərin Dansiq barəsindəki tələbatına bu nota qəti bir rəddir.

- Vaşinqtondan xəbər verilir, Amerika ərkani-hərb idarəsinin naçalniki [hərbi qərargahının rəisi] general Març bəyan eyləmişdir ki, Amerika ordusunun daimi qoşunlarının miqdarı 510 min nəfərdən əskik olmayacaqdır.

**Petroqradda üsyan**

Fin Teleqraf Agentliyinin məlumatına görə, aprelin əvvəllərində Petroqradda böyük bir üsyan vaqe olmuşdur [baş vermişdir]. Böyük patıltı səsləri eşidilmişdir, sonra bu patıltıdan yanğın əmələ gəlmişdir. Petroqrada həyəcan hökm-fərmadır [hökm sürməkdədir]. Əhalinin əksəri oradan çıxmışdır. Bu üsyanın səbəbi hələlik məlum deyildir. Yalnız burası məlumdur ki, ümumi əhəmiyyəti olan su yolu və sair idarələri patlatmaq istəmişlərdir. Digər bir məlumata görə, Finlanda sərhədində qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur. Fin qəzetələri bu əhvalın Şura Hökuməti ilə finlər arasında müharibəyə səbəbiyyət verəcəyindən ehtiyat edirlər.

**Xüsusi teleqraflar**

Gəncə - Gəncə komandanı divarlara əmrnamələr yapışdırtmışdır ki, şəhərdə olan və yeni gələn ümum zabitlər kağız və sənədlərlə komandanlığa gələrək adlarını qeyd etdirməlidirlər. Vəqti-müəyyənədə gəlməyən zabitlər həbs və nəfy [sürgün] ediləcəklərdir.

Rəvayətə görə, bu əmrnamənin nəşrinə səbəb bu olmuşdur ki, son zamanlar Gəncəyə Könüllü orduya mənsub zabitlər gəlirmişlər. Məclisi-Məbusana bu məzmunda bir teleqraf varid [daxil] olmuşdur:

*Gəncədən: Bakıda Parlamana*

*Gəncə şəhəri və qəzası nümayəndələrindən ibarət kəsrətli [izdihamlı] mitinq İstanbulda vaqe olan hadisələrdən naşi [ötrü] sair hökumətlər tərəfindən rəva görülən Türkiyənin müqəddəs paytaxtı[nı] əlindən almaq, türkləri təbaiyyətə gətirmək, 400 milyonluq aləmi-islamı təhti-təhakkümünə [hakimiyyəti altına] almaq, yəni aləmi-bəşəriyyətin böyük bir hissəsini hüquqi-bəşəriyyətdən və öz müqəddəratını təmin etməkdən məhrum qılmaq kimi hərəkətləri müqabilində protesto edir və sizdən təvəqqe edir ki, öz hökumətimizə və əcnəbi hökumətlərə bu xüsusda məlumat verəsiniz. Mitinq ümidvardır ki, Etilaf dövlətləri Türkiyənin və bütün aləmi-islamiyyətin gələcəyinə edilməkdə olan zərbəni dəf edəcəklər.*

*Mitinq sədri Pişnamazzadə*

## SÜLH ƏTRAFINDA

**Şurayi-Hərbiyyədə**

London – Havas ajansı xəbər verir ki, Hərbi Şura Almaniyaya təqdim ediləcək olan hərbi və bəhri [dəniz] və hava əməliyyatı şəraitini təsvib etmişdir [bəyənmişdir]. Bəhri şərait çox ağırdır. Müttəfiqlərə təslim ediləcək gəmilərin miqdarı artırılmışdır. Almanlara sualtı qayıqları inşası qadağan edilmişdir. Almaniya məcbur ediləcəkdir ki, bütün ləvazimi-hərbiyyəni təslim eyləsin. Ordusu isə 100 min nəfərdən artıq olmamalıdır. Bunlar da iki il müddətə çağırılan könüllülərdən təşkil edilməlidir. Vəzir [nazir] Leyq bu rəydədir ki, Kil kanalının Almaniyanın əlində qalması xətrəli [təhlükəli] olarmış. Zira bu kanalı nemeslər möhkəmləşdirə bilərlər. Şura bu rəydədir ki, Süveyş kanalına tətbiq edilən vəziyyət Kil kanalına da tətbiq edilməlidir.

Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] layihəsini sülh şəraitinə daxil etməyə hənuz Fransanı razı edə bilməmişlərdir. Lakin zənn olunur ki, nəhayət razı olacaqdırlar. Bu gün Klemanso eston, latış, Litva və Ukrayna hökumətlərinin nümayəndələrini hüzuruna qəbul eyləmişdir. Klemanso bunlara demişdir, üç həftə bundan sonra konfransda Rusiya məsələsi müzakirə edilərkən, bu hökumət nümayəndələri bəyanatda bulunmalıdırlar.

Paris – Lloyd Corc, Vilson, Klemanso və Orlando yazmış olduqları bir məktubda bəyan edirlər ki, əgər Lloyd Corc iki həftə daha Parisdə qalarsa, sülh müahidəsi ilə əlaqədar olan məsələlərin həpsi həll olunar.

## QƏZETƏLƏRDƏN

**Franşe D'Esperinin teleqrafı**

"N. S." qəzetəsi yazır ki, aprelin 2-də Odessa məntəqəsində olan Müttəfiq əsgərlər Baş komandanı D'Anselm Parisdən general Franşe D'Esperidən bir teleqraf almışdır. Bu teleqrafda deyilir ki, Məclisi-Məbusan Klemanso Hökumətinə bəyani-etimaddan [etimad bildirdikdən] sonra, hökumət tərəfindən Məclisə təqdim edilən hərbi istiqrazı əksəriyyəti-ara [səs çoxluğu] ilə rədd etmişdir. Bu əhvalatdan sonra, Klemanso Kabinəsi istefa vermişdir. Kabinənin istefası qəbul edilib, təzə hökumət təşkil edilmişdir. Odessada alınan məlumata görə, hökumət başına Albert Tomas, digər bir rəvayətə görə Viviani keçmişdir. Yeni hökumət əhaliyə müraciətən nəşr etdiyi dəvətnaməsində məmləkətdə asayiş saxlanılmasını xahiş etməklə bərabər izhar edir ki, yeni hökumətin məqsədi mümkün olan qədər sülh müahidənaməsinin [sazişinin] tezliklə imza edilməsindən və dörd ilin ərzində cəbhədə müharibə edən əsgərlərin vətənlərinə qayıtmalarından ibarət olacaqdır. Fransız əsgərlərinin Odessanı tərk etməyə hazır olmaları haqqında keçən gün binagüzarlıq [sərəncam] alınmışdır. Odessa komandanlığına təklif edilmişdir ki, Fransa əsgərlərini Romaniyaya göndərməyə hazırlasın.

**General D'Anselm**

General Anselma ərkani-hərbindən [hərbi qərargahından] general Şvartsa telefonla xəbər vermişlər ki, fövqəladə mühüm xəbərlər alındığına görə, general Şvartsın tezliklə fransız komandanlığına gəlməsi lazımdır. General Şvarts bilatəxir [dərhal] general D'Anselm yanına gedib xəbərdar olmuşdur ki, Fransa Məclisi-Məbusanı Rusiya işlərinə qarışmaq üçün hökumətin istədiyi hərbi istiqrazı rədd etdiyindən, Klemanso Kabinəsi istefa vermişdir. Bununla bərabər, general D'Anselm general Şvartsa izhar etmişdir [bildirmişdir] ki, Cənubi Rusiyada olan hamı Müttəfiq qüvvələrin çıxarılmaları haqqında Müttəfiqlər ordusunun Baş komandanlığından binagüzarlıq [sərəncam] alınmışdır. General D'Anselm general Şvartsa demişdir ki, Fransa komandanlığı Odessada qanun və asayişi saxlamaq, həmçinin Könüllü ordunun Odessadan bilamümaniət [maneəsiz] təxliyəsi üçün hər cür tədbirlər görəcəkdir. Bu müsahibədən sonra general Şvarts öz ərkani-hərbinə qayıtmışdır. Könüllü ordu komandanları general Timanovski, Levandovski və Melqenov general Şvartsın ərkani-hərbinə dəvət edilmişlərdir.

## DAĞISTANDA

**Könüllü ordu ilə dağıstanlıların müharibəsi**

Aldığımız məlumata görə, aprelin 9-10-11-də Qudermes altında Dağıstan qoşunları ilə Könüllü ordu dəstələri arasında bir neçə gündür müharibə davam etməkdədir. Bu vaxtın ərzi-müddətində Qudermes bir neçə dəfə əldən-ələ keçmişdir. Aprelin 11-də dağıstanlılar qəti surətdə Qudermesi işğal edib, ona malik olmuşlardır. Həman gün saat 3 radələrində Könüllülər yenidən hücum etmək istəsələr də, müvəffəq olmamışlardır.

Aprelin 11-də Dağıstan qoşunları düşməni Ustar-Qardoy kəndindən dəxi çıxarmışlardır. Hal-hazırda şiddətli müharibələr Məskər-Yurt kəndi ətrafında davam etməkdədir. Hər iki tərəfin tələfatı küllidir. Qudermes – Ustar-Qardoy xəttində Könüllü əsgərləri geri çəkilməkdədir. Səngərlərin bəzilərində kazakların səsi eşidilirmiş ki, onlar "Dağıstanlı qardaşlar, bəsdir müharibə etdik, gəliniz barışaq" deyə çağırırmışlar.

**Dağıstan çeteləri**

Aprelin 15-də Cibaliyyun [Dağlılar] İttifaqı Cümhuriyyətinin rəisi Kotsev Dağıstanı gəzərək Teymurxanşuraya övdət etmişdir [qayıtmışdır]. Dağıstan Hökumət vəkilinin dediyinə görə, Andi, Qunib və Avar nahiyələri Uzun Hacını vəkil etmişlər Kotsevə məlum etsin ki, onlar vətəni mühafizət etmək üçün Denikin ordusu əleyhinə hərəkatda bulunmağa 20 min nəfərdən ibarət bir partizan dəstəsi (çete) təşkil edirlər və axırıncı nəfərlərinə qədər Dağıstan istiqlaliyyətini müdafiə və mühafizət etməyi kəndilərinə vəd və yəmin etmişlərdir.

**Könüllülərin qüvvəsi**

Dağıstan mənbələrindən alınan məlumata görə, axırkı müharibələrdə Könüllü ordu tərəfindən müharibədə İkinci Plastun firqəsi, Birinci Kuban firqəsi, Tersk və Sunjen könüllüləri iştirak etmişlərdir. Könüllü ordunun halı get-gedə fənalaşmaqdadır.

## ŞİMALİ QAFQAZİYADA

Novorossiyskdən, Yekaterinodardan və Rostovdan gələnlər oraların əhvalını böylə təsvir edirlər:

Könüllü ordu tərəfindən zəbt edilmiş olan Şimali Qafqaziya şəhər və rayonlarının hamısından artıq monarxiya üsulu Novorossiysk şəhərində hökmfərmadır [hökm sürməkdədir]. İş bu yerə çatmışdır ki, Novorossiysk Kubanı tanımaq istəməyir. Çünki orada nahiyə radası davam edir. İstiqlaliyyət elan etmiş Zaqafqaziya cümhuriyyətlərini də həmçinin Novorossiysk tanımaq istəməyir. Xüsusən Gürcüstanı rədd edir. Ona görə, Batuma göndərilən paroxodlar tutulub malları çıxarılır. Könüllü ordu başçıları da Novorossiyskin Gürcüstana olan nifrətinə şərikdir. General Denikinin müavini Draqomirov teleqrafla böylə bir əmr vermişdir:

Novorossiyskdə Qara dəniz sahili qubernatoruna Baş komandan əmr etmişdir ki:

1) Novorossiyskdən Gürcüstana mal aparılması bilkülliyyə [tamamən] qadağan edilsin.

2) Əvvəlcədən verilən icazələr və şəhadətnamələr ləğv edilib geri alınsın.

3) Qaçaqmalları tutmaq üçün ciddi tədbirlər görülsün.

4) Mal çıxarmaq ancaq Baş komandanının icazəsi ilə olur.

Novorossiysk şəhərini general-qubernator [Yevgeni] Volkov idarə edir. Hal-hazırda Novorossiyskdə Müttəfiq və Könüllü ordu əsgərləri yoxdur. Çünki hamı əsgərlər Don cəbhəsinə aparılmışdır. Burada bolşeviklər böyük qüvvələrlə hücum edib Könüllü ordunu sıxışdırmaqdadırlar.

Kuban əhvalı isə başqadır. Könüllü ordunun Tersk bolşeviklərinə qalib gəlməsindən sonra qalxmış olan nüfuzu məcburi istehzari-əsgəriyyə [hərbi çağırış] ilə sıfır dərəcəsinə endirilmişdir. 36 yaşında olanları, hətta yuxarı siniflərdə olan şagirdləri əsgərliyə alırlar. Pulu və mümkünü olanlar gizlənirlər. Kəndlərdə Könüllü ordu əleyhinə şiddətli və müvəffəqiyyətli təşviqat yapılmaqdadır.

Hal-hazırda Denikin ordusunun əhvalı fövqəladə dərəcədə ağırdır. Bolşeviklər Könüllü ordunu cəbhədən sıxışdırmaqdadırlar. Arxada isə dağıstanlılar müharibə elan etmişlərdir. Dağıstanlıların müharibə elanını böyük güzəştlərlə olsa da, Denikin təsviyə [ləğv] etməyə çalışmaqdadır. Dağıstan Hökuməti ilə sülh haqqında beşəxsən müzakiratda bulunmaqdan ötrü Denikin Qroznıya azim olmuşdur [yola düşmüşdür]. Burası o cəhətlə gözə çarpır ki, bir ay bundan əqdəm [qabaq] Denikin müzakirədən ötrü Yekaterinodara gələn Dağıstan nümayəndəsini qəbul etmək istəməyib, Lyaxovun yanına göndərmişdi.

Ələlümum Kuban əhvalı ümidli deyildir. Kazaklar yorulub, müharibəni qət etmək [dayandırmaq] istəyirlər. Kubanda ərzaq şeyləri və çörək boldur, fəqət manufaktura, ayaqqabı və neft yoxdur. Kuban əhalisi neft əvəzinə günəbaxan yağı işlətməkdədirlər. Rostov şəhəri cəbhə şəhəri olduğundan, şəhərdə möhtəkirlik və həyəcan vardır. Ehtikarçılıq [möhtəkirlik] o dərəcəyə qalxmışdır ki, heç bir şeyi olmayanlar bir az müddət ərzində böyük dövlətə sahib olurlar, amma dünənki milyonerlər dilənçi halına düşürlər.

## RUS TİCARƏTİNİN TARİXİ

**- 2 -**

Tatarlar bir müddət Rusiyada hökmranlıq sürəndən sonra, ruslar kimi onlar da təfriqə [ayrılıq, ikitirəlik, bölünmə] bəlasına düçar oldular. Böylə ki, Altun Ordu [Qızıl Orda] hökumətini dağıdıb, yerində ayrı-ayrı üç xanlıq düzəltdilər. Xanlıqlar arasında zühur edən rəqabət və ədavət gedə-gedə böyüyüb tatarları zəif və axırda da xaric[i] düşmənin təcavüzatından aciz buraxdı. Odur ki, yollarda və güzərgahlarda əmin-amanlıq pozulduğu üçün rus tacirlərinin malları soyulub, bir çox yerlərdə canlarına da xəta və cəfa toxunurdu.

Tatarların bu dəfəki təfriqəbazlığı rusların bir-birindən ayrılmış knyazlıqlarını yenidən birləşməyə və qəvi [güclü] bir istiqlaliyyət yapmağa bais oldu. O vaxta qədər tatar şəhərlərində ticarətlə məşğul olan rus əhalisi, özlərinin yeni istiqlaliyyətini və tatarların da əczihalını [acizliyini] anlayıb, bundan sonra ticarət işlərini rus mərkəzlərində bitirməyə çalışdılar. Bunların səy və ehtimamları sayəsində Makaryev yarmarkası açılıb, axirüləmr [nəhayət] rus malları yollarda köçəri soyğunçularının çəngalından [caynağından] qurtardı. Bundan sonra, ruslar kamali-asayişlə mallarını öz yarmarkalarında satıb qorxusuz və arxayınlıqla evlərinə qayıdırdılar.

Bundan sonra, bir tərəfdən rus tacirlərinin təşəbbüs və qeyrətləri sayəsində və o biri tərəfdən də yarmarkanın mövqeyi və su yollarının ayrıcında düşdüyü üçün rus ticarəti gündən-günə vüsətlənib tərəqqi tapır.

İkinci ticarət mərkəzi yeni təsis olunmuş Maskov şəhəri olmuşdur. Burada da tacir sinifləri arasında knyaz və əsilzadələr birinci tacirlərdənədd [hesab] olunurlar. Hətta ruhanilər də meyil göstərib həvəslənirlər. Burada da yuxarıda zikri keçmiş rus malları satılarkən, əhalinin kəlisa [kilsə] pəhrizlərində möhkəm olduğu cəhətinə balıq ticarəti hamısından artıq olur.

Ticarət vüsətləndikcə tacirlərin pula olan ehtiyacı gündən-günə artır. Bundan əlavə, ruslar ilə lehlər (поляки) arasında vüqu bulmuş müharibədən sonra pul ehtiyacı kəsbi-şiddət edib [şiddətlənib] hökuməti təşvişə saldı. Hələ o vaxtlar Rusiyada böyük gümüş mədənləri kəşf olunmadığı üçün Maskov knyazının hökmü ilə xaricdən gəlmə "yefimka" adlı gümüş pullarını əridib, təzədən rus sikkəsi kəsilməsinə hökm verilmişsə də, bu da ehtiyacı rəf edəmməyib [aradan qaldıra bilməyib], buna ayrı bir əlac görülməsinə tədbirlər ittixaz olunurdu [tədbirlər görülürdü]. Gümüş pul əvəzinə mis pul kəsdirmək məsələsindən başqa sair bir çarə tapılmadı. İştə, ərzan qiymətə tamam olmuş [ucuz qiymətə başa gəlmiş] mis pullarının gümüş pulları ilə bərabər qiymətə sərf olunmasına hökm verilmişdi. Böylə ki, 100 rubləlik mis pul kəsdirmək üçün hökumət tərəfindən buna ancaq 160 təngəlik (bir rublədən də az) mis sərf olunaraq, xəzinəyə böyük-böyük mənfəətlər daxil olurdu. Əhali tərəfindən bu mis pullara qabaqca hüsn-rəğbət göstərildisə də, sonralardan hədsiz və hesabsız dərəcədə kəsilmiş mis pullarının ehtiramı azalmağa başladı. Buna bais hökumətin iş başında oturmuş kişilərə əmin olaraq, laqeyd və nəzarətsizliyi idi. Böylə ki, bir çox boyarlar çarın qayınatası ilə bərabər hökumətin etinasızlığına istinadən kənardan mis gətirdib, sikkəxanada rüşvət zoru ilə hökumət sikkəsi ilə bir yerdə özləri üçün ayrıca mis pulları kəsdirirdilər. Binaənileyh [ona görə], mis pulu bazarları, meydanları doldurub tamam aləmi boyadı. Bunun nəticəsi olaraq qabaqca gümüş pullar mürur ilə [vaxt keçdikcə] azalıb, axırda tamamən yox oldu. Malların qiyməti gün-gündən qalxıb kəsbi-şiddət etdi. Tacirlərdən bir çoxu müflis düşdü. Füqəra və əhli-kəsəbə qismi bahalığın öhdəsindən gələ bilməyib, aclıq bəlasına giriftar oldular. Mis pul gümüş pulu qiymətində daha durmayıb şiddətli bir surətdə tənəzzülə başladı. Məsələn, əvvəllərdə gümüş bir rubləyə bir rublə 4 qəpik mis pulu verildiyi halda, sonralardan 15 rublə mis pulu verilirdi. Bahalığın öhdəsindən gələ bilməyən əhali qiyam edib axırda "bunt" [üsyan] çıxardılarsa da, hökumət tərəfindən böyük zülmə giriftar oldular. Böylə ki, qiyamçılardan 7 mini edam cəzasına və 15 mini də sair şiddətli cəzalara məhkum oldular. Yəni "qaş qayırılarkən göz çıxarılır".

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 18 aprel (Cümə günü) tarixli 160-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bu gün bizim kağız pulları məsələsi kimi hər bir məsələ hali-təbiisindən çıxarılarsa, axırda fəna bir nəticə göstərəcəkdir! Bu vaqeə rus ticarəti tərəqqi göstərdiyi bir halda böyük bir zərbə endirib, böhranına da səbəb oldu. Vətən ticarətinə müavinət göstərmək məqsədi ilə mis pullarını icad etmiş hökumətin oxu daşa dəydi. Bundan sonra təzədən gümüş pulları kəsilərək mis pulları aralıqdan götürüldü.

Maskov hökumətinin vətən ticarətinə yeni bir xidmət göstərmək niyyətilə o vaxtlar Yevropada cərəyan edən “merkantil” (меркантилическая теорія) üsulunu qəbul etmək idi. Bu üsul bundan ibarət idi ki, vətən məhsulatı kənara çox aparılsın, ta ki, bu ticarətdən hasil xariciyyə nüqudu [nağd pulu] axıb Rusiyada biriksin. Bunun müqabilində xarici əmtəəsi Rusiyaya az daxil olsun, ta ki, rus nəqdiyyəsi əcnəbi tacirlərinin ciblərinə girməsin. Xülasə, bu üsulun ümdə məqsədi mal buraxıb pul yığmaq, pul cəm etmək idi.

İştə, bu nöqteyi-nəzərlə bir çox rus taciri Yevropa şəhərlərinə mal aparıb satmaq niyyətində bulunurlarsa da, əsl məqsəd hasil olmayır, zira rəqabəti öldürmək üçün əcnəbi tacirləri rus tacirlərinə Yevropada ənvai mümaniət [cürbəcür maneələr] yapırlar. Məsələn, Anton Laptev adlı bir Maskov taciri bir gəmi heyvan dərisi Amsterdam şəhərinə aparır ki, orada satsın. Lakin bunun mətasını heç kəs almaq istəməyir. Axırda malı yenə Rusiyaya qaytarmağa məcbur olur. Bunun malı rus sahilinə çatar-çatmaz dəfətən [dərhal] holland tacirləri böyük qiymətlə tamam dəriləri alıb dübarə geri qaytarırlar. Antonun məzəmmətinə qarşı holland tacirləri böylə cavab verirlər ki, rus tacirlərinin Yevropada ticarət etməyinə biz razı deyilik. Bunun müqabilində rus hökuməti təzə bir qanunla əcnəbi tacirlərinə Arxangelsk şəhərindən başqa sair rus şəhərlərində ticarət etməyə izin verməyirsə də, yenə rus tacirləri Arxangelsk şəhərindən uzağa gedə bilməyirlər. Zira, əcnəbi tacirləri buna mane olurlar.

Xülasə, Maskov hökuməti vətən ticarətinə yüz cürə ənam və hörmət göstərirsə də, əsl məqsəd hasil olammayır. Zira islahata möhtac tək bir ticarət məsələsi olmayıb, bundan başqa siyasi, milli, mali, iqtisadi bir çox islahata möhtac məsələlər vardı ki, bunları hökumət islah etməyincə, ticarət də qaydaya düşməyəcəkdi. İştə, bu məsələləri kökündən qazıyıb islah edici bir dahiyə, bir pəhləvana ehtiyac var idi. Onu da zamanə yetirdi. Bu - Pyotri-Kəbirdən [Böyük Pyotrdan] ibarət idi. Bu barədə gələn dəfə.

*Fərhad Ağazadə*

## NƏZARƏTLƏRDƏ

**Məsai Nəzarətində**

- Ağabala Quliyev dəyirmanı xidmətçilərindən birisi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Nəzarət tərəfindən təsdiq edildiyinə baxmayaraq, dəyirman müdiriyyəti onu xidmətdən əzl etmişdir [qovmuşdur]. Ona düşəcək əlavəni verməkdən imtina edir. Xidmətçi rica etmişdir ki, bu barədə lazım gələcək tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, Nəzarət məmuru Rəhim Hüseynzadənin təminatına baxmayaraq, Ağabala Quliyev dəyirmanı müdiriyyəti tələbatın heç birinə əməl etməməklə bərabər, xidmətçiləri bir-bir xidmətdən əzl edir və müdiriyyət əlavə edir ki, mayısın 1-də dəyirmanı bağlayacaqdır.

Kəsbkarlar İttifaqı işbu tələbatı Ağabala Quliyevi qəbul etməyə məcburi rica etmişdir:

1) Xidmətçilərin bütün tələbatını imza etməklə, xidmətdən əzl edilmiş xidmətçiləri geri qəbul etmək.

2) Əzl edilmiş iki nəfəri xidmətçi hesab etməklə, İttifaq əzası [üzvü] fəhlələrə əziyyət etməməyi birdəfəlik qəbul etməli.

3) Müqavilədən kənar heç fəhləni xidmətdən əzl etmək olmaz.

Bunların qövldən feilə [sözdən əmələ] gətirilmələri nisanın [aprelin] 20-dən gec olmamalıdır.

Dünən nisanın 17-də xidmətçilərlə Ağabala Quliyev dəyirmanı müdiriyyəti miyanında [arasında] baş qalxızmış ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] qəsdilə Rəhim Hüseynzadə cənabları oraya göndərilmişdi.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

* Məclisi-Məbusanın erməni fraksiyonu Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən məlum etmişlər ki, Gəncə qəzasının Xankəndi, Qaradonlu və Sarov kəndi erməniləri öz ərazisinin bir hissəsini əkdikdən sonra müsəlman qaçqınları o kəndləri tutmuşlardır. Binaənileyh [ona görə], erməni kəndçilərinin işləri yarımçılıq qalmışdır. Ümuri-Xeyriyyə və Nafiə naziri Gəncə qubernatorundan rica etmişdir ki, ermənilərin çöl işlərini itmama yetirmək [tamamlamaq] üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

* Gəncədəki nahiyə müfəttişi tərəfindən Qarabağ dairəsi qaçqınları üçün bir çox ərzaq alınmışdır ki, başqa-başqa nöqtələrə aparılmalıdır. Ümuri-Xeyriyyə və Nafiə naziri Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən rica etmişdir ki, Yevlax yollarına lazımi əmr verilsin o ərzağı növbəsiz olaraq aparsınlar.

* Məclisi-Məbusanın erməni fraksiyonu Soltannuxa kəndi əhalisinin təşəbbüsatını Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə təqdimən məlum etmişlər ki, 1918-ci sənədə onların kəndi ləzgilər tərəfindən tutulduğu üçün çöl işlərindən məhrum qalmışlardır. Nəzarət Gəncə qubernatoruna müraciətən rica etmişdir ki, bu barədə lazımi tədbir ittixaz edilsin.

* Ümuri-Xeyriyyə və Nafiə naziri Klenevski darüleytam [yetimxana] müdirəsi Vaykova xanım ilə müsahibədə bulunaraq məlum etmişdir ki, ətraf və əknafda [bu tərəflərdə və yerlərdə] Nəzarət bir çox darüleytamlar güşadını [açılmasını] ehtimal edir və xanımdan rica etmişdir ki, həman şöbə müdiriyyətini öz öhdəsinə qəbul etsin. Nəzarət məlum etmişdir ki, bütün Azərbaycan Ətfala [Uşaqlara] Yardım Bürosu təşkil ediləcəkdir.

## İRANLILARA DAİR

*Suxəndane pərvərde pire kohen*
*Beyəndişəd angəh ke quyəd soxən*

“Al bayraq” ruznaməsində [qəzetində] “Müdafieyi-məzluman” [Məzlumların Müdafiəsi] adında heyəti-müvəqqətə [müvəqqəti heyət; müvəqqəti komitə] tərəfindən İran fəhlələrinə təvəccöh olunub [üz tutulub] yazılan elan nəzəri-əhqərimə [həqir, aciz nəzərimə] çarpandan sonra islamiyyət qanı damarlarımda mütəhərrik olub [hərəkətə gəlib], neçə kəlmə də olmuş olsa da yazmağa məcbur oldum.

Həman adları zikr olan ağalar deyildilərmi ki, öz şəxsi rəyasətlərindən ötrü şaumyanlarla siğə qardaş olub bielm və öz hüquqi-bəşəriyyələrin düşünməyən biçarə İran fəhlələrin[i] “Krasnı armiya”[ya] yazdırıb tüfəngbəduş etmişdilər [çiyinlərinə tüfəng vermişdilər] və onların tüfəngbəduş olmaları səbəbincə İranın neçə minlərlə bitəqsir və bigünah fəhlələri Dağıstan mahalında, Quba dəhatlarında [kəndlərində] cərgəyə qoyulub fəcianə bir surətdə məzlumanə məqtul [qətl edilib] və qərib cəsədləri vəhşi və dərəndə [yırtıcı] heyvanata tömə [loğma, yem] oldular. Əcəba, bunlar imiş, Müdafieyi-Məzluman Komitəsi! Vaəsəfa [Təəssüflər olsun]! İranlıların “İttihad” mədrəsəsində məşğuli-təhsil olan biçiz [yoxsul] və yetim ətfalları [uşaqları] zalımlardan hesab olunurlarmışmı ki, həmin məzlumları müdafiə etməyə müntəxəb olan [seçilən] ağalardan 17 min manat şəhadətnamədən aid olan mənafeyi-mədrəsəni [mədrəsənin xeyrini] tüfəng gücü ilə yadiqasibanələrinə [öz qəsbkar əllərinə] keçirəndən sonra bəl eylədilər [uddular]. Aya [görəsən], bu müdafieyi-məzlumançı ağalardan deyilmidirlər ki, 6 min illik bir qədim dövlət və millətin şərəf və ehtiramlarını iki cift [cüt] “malades” və bir cift “çox sağ ol”a satıb, minli [minlərlə] İran camaatın nəinki islam arxadaşlarının nəzərində, bəlkə sair millətlər ənzarında [nəzərlərində] tənfir və tövhin və təlinlərə [nifrətə, zəiflətməyə və lənətə] layiq və səzavar [yaraşan] etmişdilər.

*To toxmi beyəfşan ke çon bedrəvi*
*Ze məhsule xod şad-xorrəm şəvi.*
*Əz həmin toxmi ke sabeğ kəştei*
*To nəmidani ke rosva gəştei.*

“Yətəşəkkəlunə biəşkalin müxtəlifə” müfadınca [mənasına uyğun olaraq], indi də müdafieyi-məzluman maskaları çəkilir. İran camaati-məzluməsi avam da olmuş olsa, qabaqkı rəzalətləri görəndən sonra, daha bu tövr vahi [boş, puç] adlara və avamfirib [adamaldadan] heyətlərə bavər [etibar] edəmməyəcəklər. Çünki qabaqkı təcrübələr milli bir tarix olub, heç bir iraninin xatirindən çıxması mümkün deyil!

*Varhan xodra əz in həmsohbətan*
*Cümlə məhtabənd əmma to kətan.*

Hərgah, müdafieyi-məzlumançı ağalar müdafiə məqamına gəlsələr də, fəqət mən də bir nəfəsim qalanca haqq və haqqaniyyətlə öz sözlərimi söyləyəsiyəm.

*Ta siyəhruy şəvəd hər ke dəru ğəş başəd*

*İrani Nejad*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycana qarşı sui-niyyət**

Srağagün, aprelin 15-də Bakıda hökumət əleyhinə sui-niyyət [terror; cinayət] hazırlanması kəşf edilmişdir. Bədəfkarların [cinayətkarların] “yuvası” Balaxanski ilə Krasnovodski küçələrin küncündə məşhur Petinkenin evi, “Qlaz” aptekxanasının altındakı padvalda [zirzəmidə] imiş. Sui-niyyətin kəşf edilməsində 6-cı uçastok milis nəfəratından [nəfərlərindən] bir nəfər dağıstanlı milisioner böyük fəaliyyət göstərmişdir. Böylə ki, məzkur [deyilən] padvalda böylə hərəkat davam etdiyini bildikdə təhqiqata başlamış və öyrənmişdir ki, sui-qəsdçilər Könüllü orduya adamlar qəbul edirlər. Milisioner dəxi özünü yazdırmaq bəhanəsilə oraya getmiş və yazılmışdır. Böyləliklə hərəkatın künhünü [mahiyyətini] anlamaqla lazımi məlumat toplayaraq, polis idarəsinə xəbər vermişdir. Polis nəfəratı, pristav başda olmaq üzrə məzkur evi əhatə etmiş və bir neçə nəfəri padvala girərək orada böyük dəftərxana və silah anbarı tapmışdır. Padvalın bir neçə kiçik odalarında 20 nəfər və digər rəvayətə görə, 40 nəfər bədəfkar dərdəst edilmişdir [cinayətkar tutulmuşdur]. Bədəfkarların çox hissəsi ermənilərdir. Onlar, dərhal tövqif [həbs] edilərək təhtəlhifz [mühafizə altında] ərkani-hərb idarəsinə [hərbi qərargaha], oradan da mərkəzi həbsxanaya göndərilmişlərdir.

Padvaldan bir çox kağızlar, sənədlər, yazı makinaları, telefon, teleqraf aparatları və bir neçə dənə də bomba ilə silah tapılmışdır.

Sənədlərdən anlaşıldığına görə, sui-niyyətçilərin Denikin Könüllü ordusu ilə əlaqə və münasibatı var imiş, hətta rəvayətə görə, Könüllü ordu Yalama mövqifinə yetişdikdə bunlar dəxi içəridən hərəkata başlayacaqlarmış.

Bədəfkarlar tövqif edildikdən sonra pristav tərəfindən evin ətrafına gizli surətdə adamlar qoyulmuş və əhvalatdan bixəbər olub da oraya – padvala gəlmiş olan “yoldaşlardan” bir neçə nəfəri dəxi tövqif edilmişdir. Böyləliklə, hökumət və Azərbaycan istiqlaliyyəti əleyhinə hazırlanmaqda olan böyük bir xəyanət və sui-niyyət hazırlanması kəşf edilmiş və bədəfkarların “yuvalarından” birisi dağıdılmışdır.

**Qara qüvvələrin hərəkatı**

Yeni gömrükxanada qulluq edən müsəlman əmələlərindən [fəhlələrindən] birisi hökumət idarəsinə məlum edir ki, o və bir çox başqa müsəlman əmələləri işlədikləri yerdə hər gün görürlər ki, bir çox erməni və rus saldatları gəlib oradan tüfəng alıb aparırlar. Böylə hərəkat hər gün 5-6 dəfə təkrar olunur. Tüfənglər kimin tərəfindən verildiyi məlum deyildir. Amma onlar görürlər ki, tamojnada ingilis saldatı (çasavoy) dayanır. Bir neçə gün bundan əqdəm [qabaq] 1500 dənəyə qədər xarab olmuş tüfənglər dənizə atılmışdır. Bir qədər də silah bugünlərdə paroxoda yüklənib aparılmışdır.

**Könüllü əfradı cəm edilməsi**

Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsi tərəfindən qərardad və fraksiya tərəfindən təsdiq edilməsinə məbni [əsasən], Dağıstan Cümhuriyyəti və istiqlaliyyətinə qara qüvvələrlə mübarizə etməkdə kömək verilməsindən ötrü indidən könüllü əfradı [əsgərləri] cəm edilməsinə şüru olunmuşdur [başlanmışdır]. Həmin qərardadı qövldən feilə [sözdən əmələ] gətirmək və həmçinin könüllüləri yazıb məhəllinə [yerinə] göndərməkdən ötrü 3 nəfərdən ibarət bir hərbi komissiya təşkil edilmişdir. Könüllü yazılmaq istəyənlər və bu xüsusda başqa işləri olanlar Məclisi-Məbusan binasında səhər saat 9-dan 2-ə qədər və axşam saat 5-dən 7-ə qədər məzkur [deyilən] komissiyaya müraciət etməlidirlər.

**Məhkəməyə cəlb**

Bakı nahiyə məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna məlum edir ki, onun tərəfindən Bakı Mərkəzi həbsxanasının müdir müavini Perkis sui-istemalda [sui-istifadədə] bulunduğu üçün təhti-mühakimə [mühakimə altına alınmış] və məsuliyyətə cəlb edilmişdir. Məzkur [adı çəkilən] müavin istintaq müdirinin binagüzarlığı [sərəncamı] ilə həbsə alınmışdır. Buna binaən [buna əsasən], müddəiyi-ümumi qubernatordan rica edir ki, tezliklə yeni bir müavin təyin etsin. Çünki naçalnik qulluq işlərindən ötrü başqa bir yerə getdikdə, həbsxana müdirsiz qalır.

**Oğurluq**

- Binəqədidə Rus Neft Cəmiyyəti müdiri 6-cı uçastok pristavına məlum etmişdir ki, məzkur [deyilən] mədəndən naməlum şəxslər tərəfindən 23 dənə Amerika trubası, 20 dənə taxta oğurlanmışdır. Oğurlanan malların qiyməti 60 min manatdır. Bədəfkarları [cinayətkarları] axtarmaqdan ötrü ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

- Əmirhacıyan kəndinin əhli Əbülfəz Əbdülkərim oğlu polisəyə məlum etmişdir ki, həman kəndin əhli Əli Həmzəli oğlu onun tövləsindən 12 min manatlıq atını oğurlamışdır. Əli tövqif [həbs] edilmişdir.

**Balaxanı məktəbləri**

Neçə ildən bəri davam etməkdə olan Balaxanı zükur və ünas [oğlan və qız] məktəblərində qeyri-müntəzəm bir halda olsa da, dərslər davam etməkdədir. Zükur məktəbi 4 şöbədən ibarət olaraq, 3 rus-müsəlman müəllimi ilə bir də elmi-ilahi müəllimi vardır. Mütəəllimlərin [şagirdlərin] miqdarı 200 nəfərdən ziyadə olub, müvəffəqiyyətlə oxumaqdadırlar.

Ünas məktəbində 3 şöbə olub, 80 mütəəllimə [qız şagird] dərs oxumaqdadır. Münasib yer olmadığından, ancaq bir odada dərsə məşğul olurlar. Burada ancaq bir müəllimə (Sara xanım Əfəndiyev) vardır ki, 3 şöbənin mütəəllimələrinə ayrı-ayrı dərs verməkdədir. Bu məktəbin halı fənadır. Çünki müəllimə və mütəəllimələr nə qədər hümmət etsələr də, namüsaid şərait içərisində şübhəsiz ki, dərs o qədər müvəffəqiyyətlə keçməz.

* Məşixət İdareyi-cəliləsi [cəlallı Şeyxülislamlıq İdarəsi] Qəzavətxana [Qazılıq İdarəsi] təvəssütü [vasitəsi] ilə Bakıda sakin şamaxılılara xəbər verir ki, Mart hadisəsi zamanı Şamaxı prixod dəfatiri [dəftərləri] yanıb məhv olduğu və bir nüviştəcat [yazılı sənəd] əldə olmadığı üçün məzkur bəldə [adı çəkilən diyar] camaatına təvəllüd-vəfat xüsusunda şəhadət vermə çox müşkül olduğu üçün onlar üçün sabiq Şamaxı prixod mollası Molla Səftər Molla Qafarzadə yenə kəndi ruhanilik vəzifəsini ifa etməyə təyin olunur. Prixoda mütəəlliq [bağlı] olan işlərdə ona müraciət etməlidirlər.

*Bakı qazısı*
*Axund Əbdürrəhim Hadizadə*

**Mühazirə**

Aprelin 11-də şənbə günü saat 4 tamamda şəhər arabaçılarından ötrü Əbdülvahab Məhəmmədzadə tərəfindən hal-hazıra dair mühazirə oxunacaqdır (Abozda). Arabaçılarn həman mühazirədə hazır olmaları rica olunur.

## FƏHLƏ HƏYATINDAN

**Balaxanıda**

Seşənbə [çərşənbə axşamı] günü aprelin 15-də Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Balaxanı şöbəsi tərəfindən bir mühazirə (leksiya) tərtib edilmişdi. Mühazirədə bir çox əmələ [fəhlə] və kəndçilər hazır olaraq, məclis Nasir Əlikərimovun sədarəti [sədrliyi] ilə açılmış, Kəndlilər İttifaqına Balaxanı kəndi tərəfindən 5 nəfər vəkil seçilməsi təklif edilmişdir. Bu vəkillər vasitəsilə Balaxanı kəndi üçün həman ittifaqlara Ərzaq Nəzarətindən azuqə gətirilməklə bərabər, məzkur [deyilən] kəndin ehtiyacı üçün eyni ləvazimat [lazım olan şeylər] dəxi mühəyya [hazır] ediləcəkdir. Böylə ki, kəndin məktəbi, işığı, yolları, dəvaxanası və başqa ehtiyaclarının rəfinə [aradan qaldırılmasına] səy ediləcəkdir. Bəzi səbəblərdən dolayı məzkur 5 nəfərin intixabı [seçilməsi] başqa bir vaxta təxir edilmiş, mühazirəçi Piri əfəndi Mürsəlzadə əhvali-hazireyi-siyasiyyə mövzusunda mühazirə oxumuşdur.

**Balaxanı krujokunda**

Seşənbə [çərşənbə axşamı] günü axşam Balaxanı krujokunda Balaxanıdakı “Qardaş birliyi” maarif cəmiyyəti tərəfindən həvəskarların iştirakı ilə “Köhnə Türkiyə” faciəsi ilə “Nə qanır, nə qandırır” komediyası oynanılmışdır. Hasilatın hamısı məzkur [adı çəkilən] cəmiyyətin nəfinə [xeyrinə] veriləcəkdir. Cəmiyyətin fəaliyyəti əmələlər üçün gecə kursları açmaq və biçiz [yoxsul] əhaliyə yardım etməkdə get-gedə geniş bir dairə almaqdadır.

**Tağıyev fabrikasında gecə məktəbi**

Müdiri-möhtərəm, acizanə təvəqqe edirik sizin cənablarınızdan bizim bu neçə kəlmədən ibarət maarif barəsindəki sözlərimizi “Azərbaycan” cərideyi-mübarəkəsinin [mübarək “Azərbaycan” qəzetinin] sütunlarında dərc edəsiniz. Bu 1919 sənədə, əvvəli-yanvardan “Müsavat” firqəsinin fabrikada olan şöbəsinin təşəbbüsü ilə gecə məktəbi güşad olunub [açılıb], fəhlə qardaşlarımıza dərs verilir. Əlan [hal-hazırda] 120 nəfər fəhlə təhsil edirlər. Gecə saat 7 tamamdan dərs başlanır, ta 10 tamama kimi. Əlan əvvəlinci şöbə ilə ikinci şöbədə dərs verilir və hər gecə fəhlələr gəlib yazılırlar. İnşallah, yenə bir şöbə artırmaq xəyalında bulunuruz və bir də fabrika müdirinə təşəkkür ediriz ki, o cənabların təşəbbüsü ilə və Hacı cənablarının mərhəməti ilə 3 nəfər müəllimin məvacibi və məktəbin xərci hamısı kantordan verilir və gələcəkdə məktəbin dairəsi böyüdükcə, sizə məlumat verərik.

*Məşhədi Yusif Salehzadə*

## BAKI QUBERNİYASINDA

**Maştağa kəndindən**

Maştağa kəndində olan halətlərdən biri məzkur [adı çəkilən] kəndin əmin və amanda yaşamağıdır. Keçən illərdə olan hərəkətlərdən asar [əsər-əlamət] görünməyir və divanxanada polis xidmətçiləri öz vəzifələrini yaxşı ifa edirlər və təzə açılan Türk Ədəmi-Mərkəziyyət “Müsavat” şöbəsinin üzvlərindən baş qaradovoy Dadaş Baba oğlunun hümməti vasitəsilə keçmiş cümədən hər həftə cümə günü dükan və bazar qapanır və camaat günorta zamanı məscidə cəm olur. Namaz qılıb ziyarəticümə oxuyurlar və yerli vaizlərdən Hacı Mirzə Əbdülkərim Hacı Əhmədzadə minbərdə əyləşib xütbədən sonra Qurani-əzimüşşandan [şanı uca Qurandan] ayələr oxuyub və təfsirinə şüru edir [başlayır]. Belə ki, keçən cümə camaata dedi:

*“Camaat, necə ki, Həzrəti-Peyğəmbər səlləllahu aleyhi və alihi və səlləm dünyada olan zamanda Allahi-əzimüşşan ayeyi-şərifənin dəlaləti ilə və o Həzrətin vasitəsilə əhli-islamı birləşməyə çağırır, qardaşlığa və yoldaşlığa çağırır və birlik münasibətilə o Həzrət ucaltdı islamın bayrağın və küffara qalib oldu və tapşırdı islam əhlinə birliyi öz aralarında və sizə vacib və lazımdır birləşmək, qardaşlıq, yoldaşlıq. Camaat, məgər sizin yadınızdan fəramuş [unudulmuş] ola bilər o günlər ki, matəm saxladınız – Mart hadisatı və siz islam və türklərin əhl və əyal və namusların paymal olmağı [tapdalanmağı]. Əlbəttə, o günlər islam və türk övladının xəyalından heç bir zaman unudulmaz. Aya [görəsən], bu qəziyyə bizim üçün özlərimizin birlikdən uzaqlaşdığımızdan deyilmiydi? Və həmçinin, gördüz, sentyabr ayında birliklə düşmənə qalib olduq. Əgər hümmət etməsəydiniz, türk qardaşlarımız özlərin bizə yetirənə kimi bizim kəndlərimizdən və evlərimizdən və özlərimizdən və bu məscid və bu minbərimizdən, necə ki, Şirvanda qalmadı, bu yerdə də asar qalmazdı və bir zihəyat [canlı] bu hüzzardan [burada olanlardan] diri qalmazdı. Bəs [elə isə], Allah-taalanın buyurduğu və gözlərimizlə gördüyümüz imtahan şəhadət verir buna ki, gərək biz türk və islamlar qardaşlıq eyləyək və cavan hökumətimiz Azərbaycan istiqlalını mal, can və başımızla mühafizət eyləyək. Əgər, hökumətimizin arxasında dayanıb onu yekdil və yekcəhət mühafizət etməsək, gələr bizim tərəfimizə gördüyümüzdən də çox qara buludlar və qara günlər. Hər bir vətən övladının əvvəlinci borcu hökumətin fərmanlarını əmələ gətirmək və əsgərliyə getmək və baş qaçırtmayasınız əsgərlikdən. Necə ki, bizim Peyğəmbərimiz zamanından bəri islam millətləri tüfəng atmağı və qədim zamanda ata minib ox atmağı təlim alırdılar və əgər mənim övladım olsa əsgərlik yaşında, öz əlindən tutub hökumətin əlinə tapşırardım, öz razılığım ilə. Əgər cavanlar əsgərə getməsə və təlim almasa, sizi düşməndən kim saxlar və irz-namusun necə amanda ola bilər və vətənimizi kim mühafizət eylər? Aya, siz şad olmayırsınız ki, öz yoldaşlarınız və qardaşlarınız silah altında və sizə salam verirlər vəhalonki [halbuki], bundan əqdəm [qabaq], silahlıları görəndə o[n]lardan əziyyət gözləyib həzər eyləyirdik. “Və kəlbühüm basitun ziraeyhi bilvəsidi” ayəsi oxuyurduq və ürəkdə güşadə [açıq-aşkar] olan sözlərimizi biz aşkara məscidlərdə, minbərlərdə sizə deyə bilməzdik qorxumuzdan ki, məsul olmayaq. Əlhəmdülillah, indi məscid bizim, minbər bizim, vətən bizim və hökumət bizim. Hamı özümüzündür.”*

Bu növ nəsihətlərdən sonra, hökumətimizə və əsgərlərimizə dua olundu və Fatihə oxuyub ölən əsgərlərə məclis tamam oldu.

Yaşasın Azərbaycan!

Yaşasın əsgərlərimiz!

*M. Hüseynzadə*

## GÜRCÜSTANDA

**Gürcüstanda ermənilər**

Tiflisdə olan Erməni Şurayi-Millisi Gürcüstanda olan ermənilərin milli-mədəni muxtariyyəti haqqında Gürcüstan Məclisi-Müəssisanına bir layihə daxil etməyi qərara almışdır. Qanun layihəsini hazırlamaq işi Popovyana və Qazaryana həvalə edilmişdir.

**Dəniz münasibatı**

Azərbaycan dəmiryolları naçalniki Teymur bəy Məlikaslanov və ticarət xidməti naçalniki Şimanski Yevropa ilə Cənubi Rusiya arasında daimi münasibat bərpa edilməsindən ötrü “Rusiya” və “R.E.T.V.P.” paroxod şirkətləri ilə müzakiratda bulunmaq üçün aprelin 10-da 5 nömrəli qatarla Batuma əzimət etmişlərdir [yola düşmüşlər].

**Məlikaslanovun şərəfinə ziyafət**

Bugünlərdə Tiflisdə Artistiçeski Obşestvada Azərbaycan dəmiryolları naziri Xudadad bəy Məlikaslanovun şərəfinə olaraq Gürcüstan hökumət əzaları [üzvləri], siyasi və ictimai xadimləri iştirakı ilə bir ziyafət kəşidə edilmişdir [ziyafət verilmişdir].

**Əcnəbi məmləkət paroxodları**

Aprelin 9-da Batumdan teleqraf edirlər ki, sabun, kibrit, dəri və cürbəcür manufaktur malları ilə yüklü iki böyük paraxod varid olmuşdur [gəlmişdir]. Bu paraxodların dalınca Qafqaziyadan ötrü hazır paltar və ayaqqabı gətirməkdə olan iki paroxod dəxi gəlməkdədir.

* Axıska və Axalkələk dairəsində erməni fərariilərinin [qaçqınlarının] halı təhəmmül edilməz [dözülməz] bir haldadır. Bütün müharibə zamanı fərariilərə müavinət edən müəssisələr bunlara kömək etməkdən aciz olmuşlardır. Tiflisdəki Erməni Milli Şurası müavinət üçün oraya adam göndərmişsə də, fəqət ona pul vermədiyindən bu xüsusda müavinət göstərməmişdir. Gürcülərin yeni əmrnaməsinə görə, bunların halı fənalaşmışdır.

* Gürcüstan Hökuməti şəhər upravalarında olan cavan erməni və yəhudiləri səfərbərliyə dəvət edir. Səfərbərliyə alınmış olan yəhudi və ermənilər bilatəxir müsəlmanlarla müharibə yapmaq üçün meydanimüharibəyə göndəriləcəkdirlər. Bu xəbər şəhər əhalisinə artıq dərəcədə sui-təsir etmişdir [pis təsir göstərmişdir].

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*

**Türk mütəəllimləri**
**və tələbələri iclası**

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın proqramına hüsn-rəğbət göstərən mütəəlim [şagird] və tələbə arxadaşlardan rica olunur, cümə günü aprel ayının 18-də, saat 4-də “Müsavat” bürosuna təşrif gətirsinlər. Daimi büro seçiləcəkdir.

*Müvəqqəti büro*
*T-109*

**İtibdir**

Şamaxılı Məşhədi Həmid Qəniyevin Lənkəran uyezdindən aldığı pasport, Tiflis Tacirlər Bankından aldığı çek və oğlu tərəfindən ona verilmiş vəkalətnaməsi itibdir.

Etibardan saqitdir.

*8719*

**Komisyon kantoru**

Hər cür komissiya, ticarət, sklad, neft və cövhər işlərini qəbul edirik. Ünvan: Yevlax, Məşhədi Firidun və İsmayıl Hüseynovların öz mülklərində.

*9154*

**Tərəzi**

Təzə tərəzi satılır hər bir şeyi ilə. Afiserski küçədə nömrə 5, Bağırovun mağazasında.

*8716*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

“Sədr – Parlaman üzvü Malxazovun etirazı əsassızdır.”: “Azərbaycan” qəzetində Malxazyanın çıxışı verilməmişdir; Malxazyan mövzunun mahiyyəti ilə bağlı mübahisələr qurtardıqdan sonra çıxış edənlərin yenə mahiyyətə dair danışmalarına etirazını bildirmişdir.

“Mən söz verdim…”: qəzetdə “Mən səs verdim…” getmişdir.

***Teleqraf xəbərləri***

“Mitava”: Latviyada, indiki Yelqava şəhəri.

“Març”: qəzetdə “Marşal” kimi getmişdir.

“…yəni aləmi-bəşəriyyətin…”: qəzetdə “yəni” yerinə “yeni” getmişdir.

***Sülh ətrafında***

“Havas”: Fransız xəbər agentliyi. 1835-ci ildə təsis edilmişdir. Frans-press agentliyi [Agence France-Presse] daha sonra “Havas”ın bazasında yaradılmışdır.

***Qəzetələrdən***

“General D’Anselm”: qəzetdə “General Anselma” kimi getmişdir.

***Rus ticarətinin tarixi***

“Makaryev yarmarkası”: Rusiyada, indiki Nijeqorod vilayətinin Lıskov rayonunun Makaryevo qəsəbəsində qurulan böyük yarmarka. İldə bir dəfə qurulan və bir gündən dörd həftəyə qədər dəyişən müddətlərdə davam edən Makaryev yarmarkası XVII əsrin əvvəllərindən XIX əsrin əvvəllərinə qədər mövcud olmuşdur.

“yefimka” (yaxud yefimok): XVIII əsrin ortalarına qədər Rusiyada da işlədilən Qərbi Avropa gümüş talerinə rus xalqı arasında verilən ad idi. Bu ad, XVI əsrin I yarısında Yoaximstal (indiki Yaximov) şəhərində kəsilən “yoaximstaler” adlı gümüş sikkədən götürülmüşdür.

“çarın qayınatası”: söhbət rus çarı Aleksey Mixayloviçin birinci arvadı Mariya Miloslavskayanın atası İlya Miloslavskidən gedir.

***Nəzarətlərdə***

Xankəndi: Gəncə qəzasında, indiki Goranboy rayonu ərazisində mövcud olmuş kənd.

***İranlılara dair***

“Suxəndane pərvərde pire kohen / Beyəndişəd angəh ke quyəd soxən”: “Söz bilən kimi tərbiyələnmiş köhnə qoca / Söz deyən zaman düşünər.” (farsca)

“Al bayraq”: “Hümmət” partiyasının Bakıda nəşr etdiyi qəzet.

“To toxmi beyəfşan ke çon bedrəvi / Ze məhsule xod şad-xorrəm şəvi. / Əz həmin toxmi ke sabeğ kəştei / To nəmidani ke rosva gəştei.”: “Sən elə bir toxum səp ki, biçərkən / Öz məhsulundan şad-xürrəm olasan. / Keçmişdə əkdiyin həmin toxumdan / Bilmirsənmi ki, rüsvay olacaqsan.” (farsca)

“Yətəşəkkəlunə biəşkalin müxtəlifə”: “Onlar müxtəlif şəkillərdə özlərini göstərirlər.” (ərəbcə)

“Varhan xodra əz in həmsohbətan, / Cümlə məhtabənd əmma to kətan.”: “Özünü bu həmsöhbətlərdən kənar tut, / Hamısı məhtabdır, sən isə kətansan.” (farsca)

“Ta siyəhruy şəvəd hər ke dəru ğəş başəd”: “Hər kimdə ürəkkeçməsi varsa, o, üzüqara olar.” (farsca)

***Bakı xəbərləri***

“prixod dəfatiri”: camaatın ianələri hesabına saxlanan yerli (məhəlli) dini icma mollalarının (prixod mollalarının) əhalinin doğum və ölümlərini qeyd etdikləri dəftərlər.

“Aboz” (yaxud Qorodskoy aboz): Bakı şəhərində at arabalarının saxlandığı, dəmirçi emalatxanalarının, həmçinin yük anbarlarının olduğu mərkəz.

***Fəhlə həyatından***

“Köhnə Türkiyə”: Rza Zakinin faciə əsəri.

“Nə qanır, nə qandırır”: Mirmahmud Kazımovskinin komediya əsəri.

***Bakı quberniyasında***

“Və kəlbühüm basitun ziraeyhi bilvəsidi”: Quranın Kəhf surəsinin 18-ci ayəsindən bir parça. Mənası: “Onların iti də qabaq ayaqlarını mağaranın girişinə uzadıb yatmışdı.” Ayənin davamı belədir: “Əgər sən onları bu vəziyyətdə görsəydin, yəqin ki, qorxudan dönüb qaçardın, dəhşət səni bürüyərdi.”

***Gürcüstanda***

“Artistiçeski Obşestva”: Tiflisdə, XX əsrin əvvəlində tikilmiş teatr binası. Hal-hazırda Şota Rustaveli adına Gürcü Dövlət Akademik Teatrı bu binada yerləşir.